## Müdafiə haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına və beynəlxalq hüquq normalarına əsaslanaraq bütün dövlətlərlə dinc yanaşı yaşamaq prinsiplərini əsas tutur və öz müdafiə qabiliyyətini təcavüzdən qorunmaq üçün müdafiə yetərliyi səviyyəsində saxlayır.

Bu Qanun Azərbaycan Respublikası müdafiəsinin təşkilinin əsaslarını müəyyənləşdirir.

### I. ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Azərbaycan Respublikasının müdafiəsinin əsasları**

Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemidir.

Azərbaycan Respublikasının müdafiəsinin məqsədi hər hansı bir vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almağın və mümkün təcavüzü silahla dəf etməyin təmin olunması üçün bütün zəruri şərtlərin yaradılmasıdır.

Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir.

Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda müdafiə yetərliyi prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikasının heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əkər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır.

M a d d ə 2. **Azərbaycan Respublikasının müdafiəsinin təşkili**

Azərbaycan Respublikasının müdafiəsinin təşkili aşağıdakılardan ibarətdir:

- dövlətin hərbi siyasətinin və doktrinasının formalaşdırılması;
- təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə müvafiq tədbirlərin görülməsi;
- hərb elminin inkişafı;
- müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlənməsi;
- Silahlı Qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, zəruri sayının təmin olunması, onların yüksək döyüş qabiliyyətinin, döyüş və səfərbərlik hazırlığının saxlanması;
- dövlətin hərbi-texniki siyasətinin hazırlanması və həyata keçirilməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika, ərzaq, keyim və digər material ehtiyatları ilə təmin olunması;
- dövlət orqanlarının, iqtisadiyyatın, əhalinin və ölkə ərazisinin müharibə dövründə fəaliyyət göstərməsi üçün səfərbərlik hazırlığı;
- dövlət sərhədinin mühafizəsi;
- ölkənin əhalisinin və ərazisinin müdafiəyə, habelə hərbi əməliyyatlarla bağlı mülki müdafiəyə hazırlığı; [1]
- dövlət sirrinin qorunmasının təmin edilməsi. **[2]**

M a d d ə 3. **Azərbaycan Respublikasının müdafiə məsələləri haqqında qanunvericiliyi**

Azərbaycan Respublikasının müdafiə məsələləri haqqında qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktından, bu Qanundan və Azərbaycan Respublikasının müdafiəyə aid. digər qanunvericilik aktlarından ibarətdir.

## II. DÖVLƏT ORQANLARININ MÜDAFİƏ SAHƏSİNDƏ SƏLAHİYYƏTLƏRİ

M a d d ə 4. **Azərbaycan Respublikasının Milli Məclisi** [3]

Müdafiə və hərbi quruculuq məsələlərinin qanunvericiliklə nizama salınması Azərbaycan Respublikası Milli Məclisinin müstəsna səlahiyyətinə aiddir.

Azərbaycan Respublikasının Milli Məclis aşağıdakıları təsdiq edir:

- hərbi doktrinanı; [4]
- büdcədən müdafiə üçün ayrılan məbləği; [5]
- Azərbaycan Respublikasının hərbi sahədə digər dövlətlərlə əməkdaşlığının əsas istiqamətlərini, hərbi məsələlərə dair beynəlxalq və dövlətlərarası müqavilələri;
- Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsi və ləğv olunması barədə Azərbaycan Respublikası Prezidentinin fərmanlarını;
- (Çıxarılıb) [6]
- hərbi andın mətnini və ümumqoşun nizamnamələrini;
- Silahlı Qüvvələrin döyüş bayraqlarını və bayraqlarını;
- hərbi qulluqçuların hərbi keyim formasını və fərqlənmə nişanlarını;
- silahların və hərbi texnikanın dövlət inkişaf proqramını.

Azərbaycan Respublikasının Milli Məclis:

- Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verir; [7]
- Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən istifadə haqqında qərar qəbul edir;
- Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin onun təyinatı ilə bağlı olmayan vəzifələrə cəlb edilməsi barədə qərar qəbul edir;
- (Çıxarılıb) [8]
- müdafiə məsələləri üzrə Azərbaycan Respublikası qanunvericiliyinin həyata keçirilməsinə nəzarət edir;
- hərbi rütbələri müəyyən edir;
- (Çıxarılıb) [9]

M a d d ə 5. **Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı kimi:

- Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə hərbi doktrinanın layihəsini, silahların və hərbi texnikanın dövlət inkişaf proqramını təqdim edir; [10]
- Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;
- ali hərbi rütbələr verir; [11]

- hərbi quruculuğun konsepsiyasını, Silahlı Qüvvələrin ümumi strukturunu və sayını təsdiq edir; [12]
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını*, elmi müəssisə və təşkilatlarını* yaradır və ləğv edir; **[13]**
- Azərbaycan Respublikasının Konstitusiyası və qanunları hüdudlarında müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir;
- birgə müdafiə və hərbi əməkdaşlıq, kollektiv təhlükəsizlik və tərksilah məsələləri barəsində danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf, səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, iqtisadiyyatın və idarəetmənin səfərbərlik planlarını, Azərbaycan Respublikasının mülki müdafiə planını və ərazi müdafiəsi haqqında Əsasnaməni təsdiq edir;
- Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir; ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir; [14]
- hərbi vəziyyət haqqında Qanuna müvafiq olaraq hərbi dövrün dövlət idarəçilik orqanlarını yaradır və ləğv edir;
- hərbi əməliyyatlar aparılması barədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə əmr verir;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin onun təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir; [15]
- Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli xidmət hərbi qulluqçularının ehtiyata buraxılması barədə fərmanlar verir;
- hərbi qulluqçuların hərbi keyim formasının geyilməsi və fərqlənmə nişanlarının sancılması qaydasını təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti müdafiə sahəsində dövlət siyasətinin formalaşdırılması üçün məşvərətçi orqan yarada bilər. Belə orqanın səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

M a d d ə 6. **Azərbaycan Respublikasının Nazirlər Kabineti**

- Azərbaycan Respublikasının Nazirlər Kabineti: Silahlı Qüvvələrin vəziyyətinə görə məsuliyyət daşıyır;
- Silahlı Qüvvələrin silah, hərbi texnika, döyüş sursatı və başqa vasitələrlə təchiz olunmasını təşkil edir;
- müdafiə və Silahlı Qüvvələrin ehtiyacları üçün maddi-texniki, ərzaq, keyim və digər ehtiyatların həcmini, həqiqi hərbi xidmətə çağırılmalı olan Azərbaycan Respublikası vətəndaşlarının sayını, hərbi vəzifəlilərin və çağırışçıların uçotunun aparılması və səfərbərlik elan edilərkən hərbi vəzifəlilərin ölkə iqtisadiyyatının ehtiyacları üçün səfərbərlik üzrə hərbi çağırışına və müharibə dövründən sonrakı çağırışlarına möhlət verilməsi qaydalarını müəyyənləşdirir;
- səfərbərlik ehtiyatlarına maddi sərvətlərin toplanması planını təsdiq edir;
- ölkə iqtisadiyyatının səfərbərlik hazırlığına və səfərbərlik üzrə işə başlamasına, onun hərbi vəziyyət şəraiti rejiminə keçirilməsinə rəhbərlik edir, bu məsələlərə aid müvafiq qərarlar qəbul edir;
- mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir və onun yerinə yetirilməsinə nəzarət edir;

- hərbi komissarlıqların fəaliyyət və maddi-texniki təchizat qaydasını müəyyən edir;
- silahların və strateji materialların ixracı üzərində nəzarəti təşkil edir;
- vətəndaşların hərbi uçot ixtisasları üzrə və zabit kadrlarının hazırlanması qaydasını, sənaye və başqa müəssisə və təşkilatlarda hərbi nümayəndəliklərin yaradılması və fəaliyyəti qaydasını müəyyənləşdirir;
- hərbi qulluqçuların, hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatlarına dair qanunvericiliyin icrasını təmin edir.

M a d d ə 7**. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir və Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanıdır və onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə hazırlığına görə tam məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

- hərbi-siyasi vəziyyəti qiymətləndirir və hərbi təhlükənin dərəcəsini müəyyənləşdirir;
- Silahlı Qüvvələrin, silahların və hərbi texnikanın quruculuğunun və inkişafının dövlət proqramlarının layihələrini, Silahlı Qüvvələrin səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, büdcədən müdafiə üçün ayrılan məbləğlər haqqında təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;
- qoşunların döyüş, əməliyyat-taktiki və mənəvi-psixoloji hazırlığına rəhbərlik edir;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsini təşkil edir;
- hərb elminin inkişafına rəhbərlik edir, hərbi-elmi tədqiqatları təşkil edir və keçirir;
- hərbi texnikanın və digər hərbi əmlakın yaradılması, istehsalı və təmiri barədə dövlət sifarişini verir, onların hazırlanmasına, sınaqdan keçirilməsinə, istehsalına və keyfiyyətinə nəzarətin həyata keçirilməsində iştirak edir;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qismlərinin, növlərinin, birliklərinin, birləşmələrinin və hərbi hissələrinin şəxsi heyətinin sayını müəyyənləşdirir, öz səlahiyyəti daxilində hərbi kadrları hazırlayır və yerləşdirir, hərbi rütbələr verir;
- vətəndaşların hərbi xidmətə hazırlanması məsələlərinə dair qüvvədə olan qanunvericiliyin icrasında iştirak edir;
- hərbi vəzifəlilərin hazırlanmasını və təkmilləşdirilməsini, vətəndaşların həqiqi müddətli hərbi xidmətə çağırılmasını və müəyyən olunmuş xidmət müddətlərini çəkib qurtarmış hərbi qulluqçuların ehtiyata buraxılmasını, hərbi qulluqçuların toplanışa çağırılmasını, həmçinin səfərbərliyi və səfərbərlikdən tərxisetməni planlaşdırır və təşkil edir;
- başqa dövlətlərin silahlı qüvvələri ilə əməkdaşlıq edir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda müdafiə məsələlərinə aid normativ aktlar qəbul edir və onların icrasına nəzarət edir;
- qüvvədə olan qanunvericiliyə müvafiq surətdə hərbi xidmət keçilməsini təşkil edir və Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının, mülki heyətinin, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial və hüquqi təminatlarını təmin edir;
- hərbi qurumların və təşkilatların fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin icrasını təşkil edir.

M a d d ə 8. **Digər nazirliklər və mərkəzi dövlət icra orqanları**

İstehsalat bazasında hərbi sifarişlər yerləşdirilmiş digər nazirliklər və mərkəzi dövlət icra orqanları silahların və hərbi texnikanın yaradılmasının və hazırlanmasının keyfiyyətinə görə, Azərbaycan Respublikası Silahlı Qüvvələri və müdafiə ehtiyacları üçün zəruri

malların tədarükünə görə və müharibə dövründə müdafiənin təmin olunması üçün tədbirlərin həyata keçirilməsinə görə məsuliyyət daşıyırlar.

M a d d ə 9. **Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və müvafiq icra hakimiyyəti orqanı, müvafiq icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları[16]**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və müvafiq icra hakimiyyəti orqanı, [17] müvafiq icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları:

- Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunvericiliyinin müdafiə məsələlərinə aid tələblərinin bütün vəzifəli şəxslər, vətəndaşlar, müəssisələr, idarələr və təşkilatlar tərəfindən yerinə yetirilməsini təmin edirlər;
- müdafiə tələblərinin və səfərbərlik hazırlığının təmin edilməsi ilə əlaqədar məsələləri həll edir, tabeliklərində olan müəssisələr tərəfindən müqavilə əsasında qoşunların sifariş olunmuş məhsullarla, su, elektrik enerjisi ilə təchiz olunmasını təşkil edir, müdafiə tələbləri üçün torpaq sahələri ayırır və onlardan istifadəyə nəzarəti həyata keçirirlər;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi hissələrinə, təşkilatlarına, təhsil müəssisələrinə xidməti və yaşayış sahələri ayırır, kommunal-məişət və başqa xidmətləri göstərirlər;
- Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq vətəndaşların həqiqi hərbi xidmətə çağırılmasını təşkil edir, hərbi vəzifəlilərin toplanış hazırlığı keçməsinin, çağırışqabağı gənclərin hərbi hazırlığının və əhalinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinin təmin olunmasına köməklik edirlər;
- hərbi qulluqçuların, çağırışçıların, hərbi vəzifəlilərin, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsi haqqında qanunvericiliyin icrasını təmin edirlər.

M a d d ə 10. **Müəssisələrin, idarələrik və təşkilatların**, **yerli özünüidarəetmə orqanlarının müdafiə ehtiyaclarının təmin olunması sahəsində vəzifələri [18]**

Mülkiyyət formasından asılı olmayaraq müəssisələr, idarələr və təşkilatlar silahların, hərbi texnikanın və digər hərbi əmlakın istehsalı, təmiri və tədarükü, elmi tədqiqatların və araşdırmaların aparılması üzrə dövlət sifarişlərini və müqavilə öhdəliklərini yerinə yetirir, zəruri səfərbərlik qüvvələrini və ehtiyatlarını yaradır və hazırlıqda saxlayır, yerli özünüidarəetmə orqanları, müəssisələr, idarələr və təşkilatlar hərbi-nəqliyyat vəzifəsini və səfərbərlik planlarında nəzərdə tutulan digər tapşırıqları yerinə yetirir, müdafiə ehtiyacları üçün qanunvericiliklə müəyyənləşdirilmiş xərcləri çəkirlər.[19]

M a d d ə 11**. Vətəndaşların vəzifələri**

Azərbaycan Respublikasının müdafiəsi Azərbaycan Respublikası vətəndaşının Konstitusiya hüququ və borcudur. Bu məqsədlə hərbi vəzifə müəyyən edilir və həmin vəzifənin həyata keçirilməməsi qanunvericiliyə müvafiq qaydada məsuliyyət doğurur.

Azərbaycan Respublikasının vətəndaşları qanunvericiliklə müəyyən edilmiş qaydada hərbi nəqliyyat vəzifəsini yerinə yetirirlər.[20]

## III. AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİ

Maddə 12. **Azərbaycan Respublikasının Silahlı Qüvvələri**

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi dövlət qurumu olub Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün və bölünməzliyinin silahlı müdafiəsi üçün təsis olunur.

Müharibə şəraitində Silahlı Qüvvələr öz vəzifələrini sərhəd qoşunları, daxili qoşunlar və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər qoşunlarla sıx əlaqədə yerinə yetirirlər.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuq prinsipləri, sayı və tərkibi, kopmlektləşdirmə, yerləşdirilmə və səfərbərlik qaydası “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyən olunur.

## IV. MÜHARİBƏ VƏZİYYƏTİ. MÜHARİBƏ DÖVRÜ. HƏRBİ VƏZİYYƏT. SƏFƏRBƏRLİK. MÜLKİ MÜDAFİƏ. ƏRAZİ MÜDAFİƏSİ

M a d d ə 13. **Müharibə vəziyyəti. Müharibə dövrü**

Müharibə vəziyyəti Azərbaycan Respublikası silahlı hücuma və ya təcavüzə məruz qaldıqda elan olunur və müharibə edən tərəflər arasında sülh müqaviləsi bağlandıqda ləğv olunur.

Müharibə vəziyyətinin elan olunduğu və ya hərbi əməliyyatların başlandığı gün və saat müharibə dövrü başlanır və hərbi əməliyyatların qurtardığı gündə və saatda qurtarır.

Azərbaycan Respublikasına qəflətən silahlı hücum və ya təcavüz edildikdə hərbi komandanlıq, dövlət qanunvericilik və icra orqanları müharibənin elan olunmasını gözləmədən silahlı hücumu və ya təcavüzü dəf etmək üçün bütün tədbirləri görməyə borcludurlar.

M a d d ə 14. **Hərbi vəziyyət**

Hərbi vəziyyət Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində müharibə vəziyyəti elan olunduqda və ya Azərbaycan Respublikasına silahlı hücum və ya təcavüz təhlükəsi olduqda tətbiq edilir.

Hərbi vəziyyətin tətbiq olunması ilə hərbi komandanlığın səlahiyyətləri genişləndirilir, Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ona müdafiə sahəsində dövlət icra orqanlarının funksiyaları verilə bilər. [21]

Hərbi vəziyyət şəraitində müəssisələrin, idarələrin, təşkilatların və vətəndaşların hüquqları müdafiə ehtiyacları üçün məhdudlaşdırılır, hüquq mühafizə orqanlarının səlahiyyətləri isə genişləndirilir.

Müharibə vəziyyəti ləğv edildikdə və ya silahlı hücum və ya təcavüz təhlükəsi sovuşduqda hərbi vəziyyət ləğv edilir.

Hərbi vəziyyət rejimi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

M a d d ə 15. **Səfərbərlik**

Müharibə dövrü və ya hərbi vəziyyət elan olunduqda Silahlı Qüvvələrin səfərbərlik planlarına müvafiq olaraq hazırlıq vəziyyətinə gətirilməsi və ölkə iqtisadiyyatının və ya onun müəyyən hissələrinin sülh vəziyyətindən müharibə vəziyyətinə gətirilməsi üçün ümumi və ya qismən səfərbərlik elan olunur.

Səfərbərliyin keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

Maddə 16. **Hərbi əməliyyatlarla bağlı mülki müdafiə** [22]

Hərbi əməliyyatlarla bağlı mülki müdafiə əhalinin və ərazinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər sistemidir.

Hərbi əməliyyatlarla bağlı mülki müdafiənin təşkili və həyata keçirilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyənləşdirilir.

M a d d ə 17. **Ərazi müdafiəsi**

Ərazi müdafiəsi dövlət sərhədinin, dəniz sahilinin, adaların, mühüm obyekt və kommunikasiyaların düşmən təcavüzündən qorunması və müdafiəsi, düşmən desantı və

kəşfiyyat-təxribatçı qrupları ilə mübarizə və hərbi vəziyyət rejiminin təmin olunması məqsədi ilə təşkil olunur.

Ərazi müdafiəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən sərhəd qoşunları, daxili qoşunlar və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər qoşunlarla sıx əlaqədə həyata keçirilir.

Ərazi müdafiəsinin vəzifələri, təşkili, onun iştirakçılarının qarşılıqlı əlaqəsi qaydaları Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

## V. AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ HAQQINDA QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

M a d d ə 18. **Vəzifəli şəxslərin və vətəndaşların məsuliyyəti**

Azərbaycan Respublikasının müdafiə haqqında qanunvericiliyinin pozulmasında təqsirli olan dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların vəzifəli şəxsləri və vətəndaşlar qanunvericiliyə müvafiq surətdə məsuliyyətə cəlb olunurlar. [23]

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 26 noyabr 1993-cü il.
№ 744.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 27 fevral 2001-ci il tarixli 94-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 148**)

**2.** 5 oktyabr 2001-ci il tarixli 190-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 683**)

**3.** 30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312**)

**4.** 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**)

**5.** 14 iyun 2005-ci il tarixli 938-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 7, maddə 576**)

**6.** 3 mart 2006-cı il tarixli 72-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 219)**

**7.** 3 mart 2006-cı il tarixli 73-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 05, maddə 385)**

**8.** 20 oktyabr 2006-cı il tarixli 171-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 933**)

**9.** 31 oktyabr 2017-ci il tarixli **828-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2196)**

### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 fevral 2001-ci il tarixli 94-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 148**) ilə 2-ci maddənin onuncu abzasına "**ərazisinin müdafiəyə**" sözlərindən sonra "**habelə hərbi əməliyyatlarla bağlı mülki müdafiəyə**" sözləri əlavə edilmişdir.

[2] 20 oktyabr 2006-cı il tarixli 171-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 933**) ilə 2-ci maddəsinin on birinci abzasından "və hərbi sirrin" sözləri çıxarılmışdır.

[3] 30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312**) ilə 4-cü maddənin adında və

mətnində ismin müvafiq hallarında verilmiş "**Ali Sovet**" sözləri ismin müvafiq hallarında "**Milli Məclis**" sözləri ilə əvəz edilmişdir.

[4] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin ikinci hissəsinin ikinci abzasından "**və hərbi quruculuğun konsepsiyasını**" sözləri çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~hərbi doktrinanı və hərbi quruculuğun konsepsiyasını~~

[5] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin ikinci hissəsinin üçüncü abzasından "Silahlı Qüvvələrin ümumi strukturunu və sayını" sözləri çıxarılmışdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Silahlı Qüvvələrin ümumi strukturunu və sayını~~

[6] 5 oktyabr 2001-ci il tarixli 190-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 683**) ilə 4-cü maddəsinin ikinci hissəsinin yeddinci abzasından "**və hərbi turbinalarda**" sözləri çıxarılmış, "**prokurorluq**" sözü "**prokurorluqda**" sözü ilə əvəz edilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~hərbi prokurorluq və hərbi tribunallarda hərbi qulluqçular tərəfindən tutulmalı olan ştat vəzifələrini və bu vəzifələrə uyğun hərbi rütbələrin siyahısını;~~

20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin ikinci hissəsinin altıncı və yeddinci abzasları çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~ali zabitlər tərəfindən tutulmalı olan vəzifələrin vahid siyahısını~~
~~hərbi prokurorluqda hərbi qulluqçular tərəfindən tutulmalı olan ştat vəzifələrini və bu vəzifələrə uyğun hərbi rütbələrin siyahısını~~

[7] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin üçüncü hissəsinin ikinci abzası yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~təcavüzdən birgə müdafiə haqqında beynəlxalq müqavilələri yerinə yetirmək zərurəti olduqda öz təşəbbüsü ilə, Azərbaycan Respublikası hərbi basqına məruz qaldıqda isə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə müharibə elan edilməsi və sülh bağlanması məsələlərini həll edir~~

[8] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin üçüncü hissəsinin beşinci abzası çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~müdafiə nazirinin təyin olunmasına və vəzifəsindən azad edilməsinə razılıq verir~~

[9] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 4-cü maddənin üçüncü hissəsinin səkkizinci abzası çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə “ordu generalı” hərbi rütbəsini fərdi qaydada verir~~

[10] 14 iyun 2005-ci il tarixli 938-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 7, maddə 576**) ilə 5-ci maddənin ikinci hissəsinin ikinci abzasinda “**və hərbi quruculuq konsepsiyasının layihələrini**” sözləri “**layihəsini**” sözü ilə əvəz edilmiş, “**Silahlı Qüvvələrin ümumi strukturu və sayı haqqında təkliflərini**” sözləri çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə hərbi doktrinanın və hərbi quruculuq konsepsiyasının layihələrini, silahların və hərbi texnikanın dövlət inkişaf proqramını, Silahlı Qüvvələrin ümumi strukturu və sayı haqqında təkliflərini təqdim edir~~

[11] 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 5-ci maddənin ikinci hissəsində üçüncü-beşinci abzaslar yeni redaksiyada verilmişdir .

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının müdafiə nazirini təyin edir və vəzifədən azad edir;~~

~~ali zabitlər tərəfindən tutulmalı olan hərbi vəzifələrə hərbi qulluqçuları təyin edir, habelə vəzifədən azad edir; "ordu generalı" hərbi rütbəsinin verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;~~

~~qanunla nəzərdə tutulmuş hallarda hərbi rütbələr verir;~~

**[12]** 14 iyun 2005-ci il tarixli 938-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 7, maddə 576**) ilə 5-ci maddənin ikinci hissəsinə yeni altıncı abzas əlavə edilmiş və altıncı-on beşinci abzaslar müvafiq olaraq yeddinci-on altıncı abzaslar hesab edilmişdir.

**[13]** 31 oktyabr 2017-ci il tarixli **828-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2196)** ilə 5-ci maddənin ikinci hissəsinin yeddinci abzasında " **və elmi tədqiqat təşkilatlarını**" sözləri "**, elmi müəssisə və təşkilatlarını**" sözləri ilə əvəz edilmişdir.

**[14]** 20 aprel 2004-cü il tarixli 640-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 319**) ilə 5-ci maddənin ikinci hissəsinin onuncu abzasi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət tətbiq edir, Azərbaycan Respublikası hərbi basqına məruz qaldıqda isə müharibə vəziyyəti elan edir və bu məsələləri dərhal Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir, ümumi və ya qismən səfərbərlik və səfərbərlik üzrə çağırılanlar barədə tərxisetmə elan edir.~~

**[15]** 30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312**) ilə 5-ci maddənin mətnində ismin müvafiq hallarında verilmiş "**Ali Sovet**" sözləri ismin müvafiq hallarında "**Milli Məclis**" sözləri ilə əvəz edilmişdir.

[16] 3 mart 2006-cı il tarixli 72-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 219)** ilə maddənin adında və mətnində "**yerli dövlət**" sözləri "**müvafiq icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə**" sözləri ilə əvəz edilmişdir.

30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312**) ilə 9-cu maddənin adında və birinci abzasında "**Ali Soveti**" sözləri "**Ali Məclisi**" sözləri ilə, "**Nazirlər Soveti**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

[17] 3 mart 2006-cı il tarixli 72-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 219)** ilə maddənin adında və mətnində "**yerli dövlət**" sözləri "**müvafiq icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə**" sözləri ilə əvəz edilmişdir.

**[18]** 3 mart 2006-cı il tarixli 73-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 385)** ilə maddənin adında "**təşkilatların**" sözündən sonra "**, yerli özünüidarəetmə orqanlarının**" sözləri əlavə edilmişdir.

[19] 3 mart 2006-cı il tarixli 73-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 385)** ilə maddənin mətnində "hərbi nəqliyyat öhdəliklərini" sözləri "yerli özünüidarəetmə orqanları, müəssisələr, idarələr və təşkilatlar hərbi-nəqliyyat vəzifəsini" sözləri ilə əvəz edilmişdir.

**[20]** 3 mart 2006-cı il tarixli 73-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 385)** ilə 11-ci maddəyə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

**[21]** 30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312**) ilə 14-cü maddənin ikinci

hissəsində ismin müvafiq hallarında verilmiş "**Ali Sovet**" sözləri ismin müvafiq hallarında "**Milli Məclis**" sözləri ilə əvəz edilmişdir.

**[22]** 27 fevral 2001-ci il tarixli 94-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 148**) ilə 16-cı maddə yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 16. **Mülki müdafiə**~~

~~Mülki müdafiə mülki əhalini və ölkə iqtisadiyyatı obyektlərini hərbi əməliyyatlar zamanı yaranan təhlükələrdən qorumaq məqsədi ilə təşkil edilir.~~

~~Mülki müdafiənin təşkili Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.~~

[23] 3 mart 2006-cı il tarixli 72-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 219)** ilə 18-ci maddədə "**dövlət orqanlarının**" sözləri "**dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının**" sözləri ilə əvəz edilmişdir.